

# Xeyirxahlıq simvolu

**Yüzillik yubileyini qeyd etdiyimiz Zərifə xanım Əliyevanın kimliyini, mənəvi və insani keyfiyyətlərini, Azərbaycan qadınının nümunəvi obrazını özündə ehtiva edən şəxsiyyətini bir yazıda ifadə etmək asan deyil. Zərifə xanımın şəxsiyyətinin və fəaliyyətinin ən dəqiq və olduqca yığcam təsvirini elə onun ömür-gün yoldaşı, Ulu Öndər Heydər Əliyev özü verib.**

Ulu Öndər Zərifə xanımı belə xarakterizə edirdi: "Azərbaycan xanımının mənəvi dəyərlərini özündə təcəssüm etdirən Zərifə xanım bir qadın, bir həyat yoldaşı, bir ana, bir həkim, bir alim, bir ictimai xadim olaraq elə sağlığında əfsanəviləşməyi bacarıb və daşıdığı bu titulları mərhəmət, şəfqət, humanizm kimi ali hisslərlə bütövləşdirərək əsl insanlıq zirvəsinə yüksəlib".

Bəli, zərgər dəqiqliyi və müdrikcəsinə verilmiş bir dəyər - əsl insanlıq zirvəsinə yüksəlmiş şəxsiyyət. Bəs nə deməkdir əsl insanlıq zirvəsinə yüksəlmək?! Elə bu suala da ən düzgün cavabı Ulu Öndər özü vermişdir: "Deyirlər, xoşbəxtlik nisbi anlayışdır və dünyada tam xoşbəxt olan insan yoxdur. Amma Tanrı tərəfindən seçilmiş elə şəxslər də var ki, sağlığında insanların rəğbətini, sevgisini qazanan, bu dünya ilə vidalaşandan sonra isə tarixdə özünə əbədi şərəfli ad qoyan xoşbəxt insanlardan olur. Elə o da öz adını tarixin səhifələrində əbədiləşdirən, xatirələrdə hər zaman hörmətlə anılan, saygı ilə yada salınan unudulmaz şəxsiyyətlərdən oldu. Çünki böyük Yaradan ona elə böyük ürək bəxş edib, qəlbinə elə parlaq bir nur çiləmişdi ki, onunla rastlaşan, ünsiyyətdə olan hər bir kəs ilk növbədə özündə ümid, təsəlli, inam, sakitlik tapar, könlü xeyirxahlıq şəfəqinin şöləri ilə işıqlanardı. O, insanları sevərdi, heç vaxt heç kimi incitməz, heç kimi naümid qoymaz, heç kimə kömək etməkdən imtina etməzdi".

Tale Zərifə xanıma həm Azərbaycanın dövlət başçısının - Ulu Öndər Heydər Əliyevin həyat yoldaşı olmağı, həm də gələcək dövlət başçısının - Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin anası olmağı nəsib etmişdir. Görünür ki, Zərifə xanımın xeyirxahlığı, qayğıkeşliyi, başqalarının halına yanmaq, dərdinə acımaq və insansevərliyi istər Ulu Öndərin, istərsə də Müzəffər Ali Baş Komandanımızın həyatında dərin və silinməz izlər buraxmışdır. Prezident İlham Əliyev anası Zərifə xanım Əliyevanın xeyirxahlığının köklərini belə izah edir: "Mənim anamın həyat fəlsəfəsinin köklərini hər şeydən əvvəl onun uşaqlığında axtarmaq lazımdır. O, bizə tez-tez deyərdi ki, uşaqlıq - insan həyatının çox mühüm dövrüdür və heç nə bu dövrü əvəz edə bilməz. Uşaqlıq - insanın ömrü boyu təkrar-təkrar müraciət etdiyi dünyadır. İnsan xeyirxahlığın, şəfqətin nə olduğunu uşaqlıqda dərk edir. O, çox xoşbəxt uşaq olub, uşaqlıq onun yaddaşında məhəbbət və əziz xatirələr mənbəyi kimi qalmışdı".

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Zərifə xanımın xeyirxahlığını onun uşaqlığında axtarmağın vacibliyini vurğulaması, əslində, dərin elmi məntiqə əsaslanır. Avropanın qabaqcıl tədqiqat mərkəzlərində uşaqlıq dövrünün insanın sonrakı həyatında müstəsna, müqəddərat müəyyənləşdirici rol oynaması müxtəlif araşdırmalarla təsdiq olunmuşdur. Hətta hər hansı tarixi dövrün mahiyyətini daha dərindən anlamaq üçün uşaqlığı həmin dövrə təsadüf etmiş insanların xatirələrini tədqiq edirlər.

Ulu Öndər Heydər Əliyevin və xeyirxahlıq simvolu Zərifə xanım Əliyevanın ailəsində böyümüş İlham Əliyevin Azərbaycanın torpaqlarını düşməndən azad etməsi və ərazi bütövlüyümüzü bərqərar etməsi təsadüfi deyildir. O, siyasət və liderlik keyfiyyətlərini Heydər Əliyevdən əxz etmiş, qayğıkeşlik və xeyirxahlığı Zərifə xanım Əliyevadan öyrənmişdir.

Zərifə xanımın xeyirxahlığı onun peşə seçimində də özünü parlaq surətdə göstərmişdir. O, göz həkimi, oftalmoloq kimi insanların gözünün nurunun qorunmasına, onların dünya işığına həsrət qalmamasına yardımçı olmuşdur. O, bu sahənin görkəmli alimi kimi Azərbaycanda oftalmologiya elminin inkişafına mühüm töhfələr vermiş, traxoma xəstəliyi ilə mübarizənin önündə getmişdir.

*Adil ƏLİYEV,*
*Milli Məclisin Sədr müavini,*
*Gənclər və idman komitəsinin sədri*

Azərbaycan.- 2023.-28 aprel.- S.5.